

Ramil ƏHMƏD

# QARABAĞA QAYIDIRIQ, DÜNYA GÖZƏLLƏŞİR...

"Mən doğulanda valideynlərimin dünyaya göz açdıqları, böyüyüb boya-başa çatdıqları torpaqlar işğal olunmuşdu. Nə Ağdam vardı, nə Şuşa! Ağdam haqqında təsəvvürüm nənəmgilin yaşadığı kənddən ibarət idi. Şuşanı isə ailə albomunda və televizorda görmüşdüm. Anamın, atamın, qohumlarımın təkcə torpaqları deyil, həm də uşaqlıqları, gəncliklər işğal edildi. Artıq iyirmi ildir ki, o yerlərə əlləri çatmır. Keçmişi yalnız xatirələrində qoruyub saxlayır, əllərində olan üç-dörd köhnə fotoşəkillə təsəlli tapırlar.

Fikirləşirəm... fikirləşirəm ki, qolsuz kişilərin siqaretini başqalarının yandırmasını, arvadların ayaqlarını müharibədə itirmiş ərlərini kürəklərində daşımağını, uşaqlarını saxlamaq üçün gecəsini gündüzünə qatıb işləyən qadınların kişi əlləri kimi kobudlaşmış, qabar bağlamış əllərini hansı sözlə ifadə edim...

Biz onda hələ çox şeydən xəbərsiz idik. Ölümün nə demək olduğunu başa düşmürdük. Ölüm bizim üçün uzaq bir ölkə kimiydi. Ora gedənlərin bir gün nə vaxtsa qayıdacağına bütün qəlbimizlə inanırdıq. Hər səhər yol kənarında oturub uzaqlara getmiş əzizlərimizin bizə şokolad, velosiped və daha nələr, nələr alıb gətirəcəyini gözləyirdik. Hər axşam Allah babadan atamızın tez qayıtmasını diləyir, bütün parabüzənləri atamızın arxasınca göndərirdik: "Uç, uç, qarı nənə, bizə atamızı gətir..."

Gecələr anamız bizə "Cırtdan"ın, "Məlikməmməd"in nağılından çox, atamızın, dayımızın qəhrəmanlıq dastanlarından danışardı. Özümüzü kino ulduzlarına, müğənnilərə yox, atamıza oxşatmağa çalışardıq. Oğlanların arzusu ataları kimi əsgər olmaq idi. Qızlar da həkim olmaq istərdilər, hərbi həkim!

Müharibə atamızın yoxluğunun evi doldurmasıydı bir az da. Onun böyük ölçülü ayaqqabılarını geyindik, ancaq biz hələ ayaqqabının iplərini bağlamağı belə bacarmırdıq. Bağlaya bilmədiyimiz ayaqqabının ipləri ayaqlarımıza dolaşdı və üzü üstə yıxıldıq. Yıxılmaq da bizim uşaq təsəvvürümüzdə bir oyun idi.

Taxtadan tapançalar düzəldərdik, döyüş təcrübəsi qazanmaq üçün komandalara bölünüb dava-dava oynayardıq. Elə bilirdik ki, müharibə də bir oyundur, böyüklərin oynadığı bir oyun. Düşünürdük ki, onlar da bizim kimi iki-üç saat oynayacaqlar, sonra yorulanda evimizə qayıdacaqlar. Amma onlar yorulmadılar. Bu oyun o oyundan deyildi, bu tapançalar o tapançalardan deyildi, bu ölümlər o ölümlərdən deyildi və onlar nədənsə evə qayıtmaq istəmirdilər...



Məhəllədəki qızların hamısı evcik qurar, qumdan xörək hazırlayar, gəlinciklərinə analıq edərdilər. Gəlincikləri də müharibədən qayıdan kişilər kimi idi – mütləq bir yerinə zərər dəymişdi, ya başları itkin düşmüşdü, ya da ki ayağının, qolunun biri yoxuydu...

...Adı Nazlıydı, ancaq onun yamaqsız, təzə, rəngli paltarları, gözəl çəkmələri, gəlincikləri olmadı ki, nazlansın. Ancaq adı Nazlı idi, Naz-lı! Bizimlə birlikdə oynayan, yol kənarında oturub atasını gözləyən uşaqlardan biri də o idi. Həmişə üstündə ağ-qara bir şəkil gəzdirər, tez-tez çıxardıb şəkildəki kişini öpərdi...

Nazlı Bakıya köçdüyümüzü biləndə üstündə gəzdirdiyi ağ-qara şəkli çıxardıb öpdü, sonra isə mənə uzadıb dedi:

– Bakıda atamı taparsan?

Tapacağıma inanardım. Söz verdim, yaxşı, dedim. Zaman keçdi. Uşaqlara deyilməyən hər şeyi anladım. Uşaqlığımı itirdim, böyüdüm. Nazlını itirdim...

Bilmirəm haradadır indi. Bilmirəm, onun yadında qalmışam, yoxsa yox. Amma onu unutmamışam. Bakıda atamı taparsan? – deyəndə mən Nazlının atasını tapacağıma inanırdım. İndi, yəqin, Nazlı da atasının başına gələnlərdən xəbərdardır. Bəlkə də, yenə yol kənarında dayanıb atasını gözləyir, tez-tez atasının şəklini cibindən çıxardıb öpür və yenə parabüzənləri atasının arxasınca göndərir: "Uç, uç, qarı nənə, mənə atamı gətir..."

Yuxarıdakı yazını on doqquz yaşımda yazmışdım. Yenidən oxuyanda sevindim ki, bir də bu qədər hüzn dolu mətnlər yazmayacağıq. Biz uduzmuş ataların, məğlub ordunun uşaqlarıydıq. Evimizin bütün əşyalarından oyuncaqlarımıza qədər kədər çökmüşdü. Həyatımız alt-üst olmuş, "qaçqın" olaraq işarələnmişdik. Bugünün uşaqları isə daha məğrurdular. Onlar hər şeyi anlayırlar. Bilirlər ki, onların ataları hamımızın qürur yeridir. Bilirlər ki, bir vaxt itirilmiş cənnətimiz Qarabağda bütün ağrılarımız dincələcək, biz alnıaçıq, başı dik dayanacağıq. Biz Qarabağa qayıdırıq, dünya gözəlləşir...